Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

tərəfindən verilən maliyyə yardımı üzrə görülmüş işlərə dair

# YEKUN HESABAT

Maliyyə yardımı müqaviləsi № **1/8/287/050**

**Maliyyə yardımı alan QHT-nin adı:** “Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi

Təqdim olunmuş tarix: 01dekabr, 2014-cü il

## Ümumi məlumat

| | |
|---|---|
| Layihənin adı | Korporativ-Sosial Məsuliyyət üzrə dərs vəsaitinin hazırlanması (2013-cü ildə icra olunmuş layihənin davamı) |
| Layihənin müddəti<br>*(başlama və bitmə tarixi)* | 01 aprel, 2014 – 30 noyabr, 2014 |
| Şura tərəfindən ayrılmış maliyyə yardımının ümumi məbləği | 7000 AZN |
| Bu günədək ayrılmış maliyyə vəsaitinin miqdarı | 4900 AZN |
| Hesabatın əhatə etdiyi dövr | 01 aprel, 2014 – 30 noyabr, 2014 |

### 1. LAYİHƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Layihənin əsas məqsədi **<u>Ali tədris müəssisələrində KSM üzrə tədris imkanlarının artırılmasıdır.</u>** Bu məqsədə "Ümid" SİD aşağıdakı vəzifələrin icrası vasitəsilə çatmağı planlaşdırır:

**Vəzifə 1**: KSM üzrə dərsliyə daxil olunacaq fəsil, paraqraf, mövzular və alt mövzuların təkmilləşdirilməsi, maraqlı tərəflərlə müzakirəsi, mündəricatın tamamlanması;
**Vəzifə 2**: KSM üzrə dərsliyə daxil olunacaq 3-cü və 4-cü fəsillər üzrə mühazirə və köməkçi materialların hazırlanması;
**Vəzifə 3:** KSM üzrə dərs vəsaitinin sınaqdan çıxarılması və çap olunması üçün hazırlıq işləri

### 2. Hesabat dövründə öhdəliyə götürülmüş işlər

| | *Fəaliyyətin adı* | *Həyata keçirilmə tarixi* | *Həyata keçiriləcək yer* | *Məsul şəxs* |
|---|---|---|---|---|
| 1 | KSM üzrə dərsliyə daxil ediləcək 1-ci və 2-ci fəsilin mövzularının zənginləşdirilməsi, 3-cü və 4cü fəsilə daxil olacaq mövzuların təkmilləşdirilməsi | 01.04.14-30.05.14 | "Ümid" SİD, ATİ | İsrayıl İsgəndərov, Sənan Əliyev |
| 2 | Ekspertlər tərəfindən təkmilləşdirilmiş mövzuların ali təhsil müəssisələri, QHT sektoru, biznes strukturlarının nümayəndələri ilə müzakirəsi | 01.05.14-30.09.14 | Ali təhsil müəssisələri, QHT formu, | İsrayıl İsgəndərov, Rasim Quliyev |
| 3 | Korporativ Sosial Məsuliyyət üzrə tədris vəsaitlərinin hazırlanması məqsədilə ədəbiyyat siyahısının və mündəricatın tamamlanması | Sentyabr 2014 | ATİ | Sənan Əliyev |
| 4 | 3-cü və 4-cü fəsilə daxil olan materiallar üzərində iş | 01.05.14-30.09.14 | ATİ, "Ümid" SİD, KAM | İsrayıl İsgəndərov, Sənan Əliyev, Əliməmməd Nuriyev |
| 5 | KSM üzrə dərs vəsaitinin ATİ-nin Elmi Şurasında müzakirəsi, qrifin alınması və çapa hazırlıq | Oktyabr-noyabr 2014 | ATİ | Sənan Əliyev, İsrayıl İsgəndərov |

| | | | | |
|---|---|---|---|---|
| 6 | KSM üzrə dərs vəsaitinin qrif alması üçün Təhsil Nazirliyinə təqdim olunması | Oktyabr-noyabr 2014 | ATİ | İsrayıl İsgəndərov |
| 7 | Dərs vəsaitinin çapı üçün tədbirlər | Noyabr 2014 | ATİ | Sənan Əliyev, İsrayıl İsgəndərov |

## 3. Hesabat dövründə görülmüş işlər

**1-ci fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | KSM üzrə dərsliyə daxil ediləcək 1-ci və 2-ci fəsilin mövzuları zənginləşdirilmiş, 3-cü və 4cü fəsilə daxil olacaq mövzular təkmilləşdirilmişdir |
| ***Keçirilmə tarixi*** | Aprel- may, 2014-cü il |
| ***Keçirildiyi yer*** | "Ümid" SİD və ATİ |
| ***İştirakçılar*** *(Siyahı hesabata əlavə olunmuşdur)* | Layihə üzrə ekspertlər Sənan Əliyev, Layihənin direktoru İsrayıl İsgəndərov |
| ***Fəaliyyətin qısa təsviri*** | **1.1. KSM üzrə dərs vəsaitinin hər 4 fəsili ATİ-də müxtəlif qruplarda tədris edilmiş və tədris prosesində təkmilləşdirilmiş və zənginləşdirilmişdir.**<br><br>**1.1.1.** 1-ci fəsilin 6-cı paraqrafı Korporativ sosial məsuliyyətin inkişaf tarixi və müxtəlif ölkələrin təcrübəsi kimi adlandırılmış, **Filantropiyadan Davamlı İnkişafa doğru** adlı bölmə əlavə edilmişdir. Bu mövzu əsasən KSM-in inkişaf dinamikasını əhatə edir, bu dinamika tarixi ekskursiya kimi verilmiş, müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda Filantropiya fəaliyyətləri barədə məlumat verilmiş, flantropiyanın KSM-in bir elementi olması açıqlanmış, bunun KSM mədəniyyətinə çevrilməsi üzrə təkamül prosesi izah edilmişdir.<br>**1.1.2.** Korporativ sosial məsuliyyətin regional xüsusiyyətləri alt bölməsi əlavə edilmiş, Avropa ölkələrində, Yaponiyada, Rusiyada, Avstraliyada korporativ sosial məsuliyyət adlı alt bölmədə isə bu ölkələrdə KSM siyasəti açıqlanmışdır. İslam ölkələrində korporativ sosial məsuliyyət alt bölməsi yenidən işlənmiş, təkmilləşdirilmiş və zənginləşdirilmiş, KSM siyasətinin İslam mədəniyyətə uyğunluğu açıqlanmışdır.<br>**1.1.3.** İknici fəsil, Korporativ sosial məsuliyyət davamlı inkişafın təmin edilməsi vasitəsi kimi fəsili olaraq qalmışdır, lakin bu fəsil 2.1 Davamlı İnkişaf Anlayışı, Davamlı İnkişafın Əsas Prinsipləri və Nəzəri Əsasları, 2.2. Davamlı İnkişaf Paradiqması 2.3. Davamlı inkişafda müxtəlif tərəflərin rolu: Korporativ davamlılıq və korporativ vətəndaşlığı, 2.4. Korporativ davamlılığın təmin edilməsi yolları: Korporativ sosial məsuliyyət davamlı inkişafın təmin edilməsi vasitəsi kimi adlı 4 alt paraqrafa ayrılmışdır.<br>**1.1.4.** İkinci fəsilin 4-cü paraqrafı təkmilləşdirilmiş və |

| | |
|---|---|
| | Korporativ Sosial Məsuliyyət Ehtiyatlar nəzəriyyəsi fokusundan, korporativ sosial məsuliyyətli siyasət və insan hüquqları, Sosial mühasibat uçotu, audit və hesabat, Sosial lisenziya, Potensial biznes imtiyazları, Üçlü kriteriya, İnsan resursları, Risk Menecmenti, Qloballaşma və bazar qüvvələri, Sosial maariflənmə və təhsil mövzuları kimi vacib və müasir mövzular ilə zənginləşdirilmişdir.<br>**1.1.5.** Korporativ Sosial Məsuliyyətin bir mədəniyyət forması və könüllü məsuliyyət olduğu nəzərə alınaraq 3-cü fəsili KSM-in tənzimlənməsi formaları adlandırmaq qərara alınmışdır. Bu fəsil özlüyündə 3.1. Korporativ Sosial məsuliyyətin tənzimlənmə formaları, 3.2. Beynəlxalq və regional standartlar, 3.3. Korporativ sosial məsuliyyətin tənzimlənməsində dövlətin rolu, 3.4. Azərbaycanda korporativ sosial məsuliyyətin tənzimlənməsi məsələləri kimi 4 alt bölməyə ayrılmışdır.<br>**1.1.6.** 4-cü fəsil korporativ sosial məsuliyyətin tədbiqi adlandırılmış və 4.1. Korporativ sosial məsuliyyət layihələrinin əsas xüsusiyyətləri, 4.2. korporativ sosial məsuliyyətin tədbiqində QHT və medianın rolu, 4.3. Korporativ sosial məsuliyyətin icrasında biznes və QHT münasibətləri, 4.4. korporativ sosial məsuliyyət layihələri və onların özəllikləri kimi 4 alt bölməyə ayrılmışdır. |

**2-ci fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | Ekspertlər tərəfindən təkmilləşdirilmiş mövzuların ali təhsil müəssisələri, QHT sektoru, biznes strukturlarının nümayəndələri ilə müzakirəsi |
| ***Keçirilmə tarixi*** | 23.04.14, 23.09.2014, 15.09.14-20.11.14 |
| ***Keçirildiyi yer*** | Azərbaycan Pedoqoji Universiteti, Çanaqqala BTA zalı, Morriott Abşeron, Azərbaycan Turizm İnstitutu, Azərbaycan Universiteti |
| ***İştirakçılar*** | 20 nəfər- Ali Təhsil müəssisələrinin müəllim-professor heyəti, 70 nəfər ali məktəb tələbəsi, 10 QHT nümayəndəsi, 10 sahibkar, cəmi 110 nəfər. |
| ***Fəaliyyətin qısa təsviri*** | 2.1. 23.04.2014 tarixində QHT FORUM-nun Azərbaycan Peoqoji Universitetində təşkil etdiyi Sivil Cəmiyyətin İnkişafında təhsilin rolu adlı tədbirdə Korporativ Sosial Məsuliyyət, QHT menecmenti və İcma Menecmenti üzrə tədris olunan mövzular müzakirə edilmiş, tövsiyələr alınmışdır.<br>2.2. 23.09.2014-cü il tarixində MG Konsaltinqin (Qeyri kommersiya hüququ) təşkil etdiyi “Tərəfdaşların rüblük görüşü” tədbirində Korporativ Sosial Məsuliyyət, QHT menecmenti və İcma Menecmenti üzrə tədris olunan mövzuların təqdimatı keçirilmişdir.<br>2.3. 15.09.14-20.11.14 müddətində ATİ və AU-da menecment ixtisası üzrə təhsil alan tələbələrə hazırlanmış tədris vəsaiti əsasında dərs keçilmişdir. |

**3-cü fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | Korporativ Sosial Məsuliyyət üzrə tədris vəsaitlərinin hazırlanması məqsədilə ədəbiyyat siyahısının və mündəricatın tamamlanması |
| ***Keçirilmə tarixi*** | Sentyabr 2014 |
| ***Keçirildiyi yer*** | ATİ |
| ***İştirakçılar*** | Sənan Əliyev |
| ***Fəaliyyətin qısa təsviri*** | Layihənin eksperti Sənan Əliyev hər 4 fəsil üzrə ədəbiyyat siyahısını müqayisəli təhlil etmiş və fəsillər üzrə yekun ədəbiyyat siyahısını təqdim etmişdir. |

**4-cü fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | 3-cü və 4-cü fəsilə daxil olan materiallar üzərində iş |
| ***Keçirilmə tarixi*** | 01.05.14-30.09.14 |
| ***Keçirildiyi yer*** | ATİ, "Ümid" SİD, KAM |
| ***İştirakçılar*** | Cəfər Cəfər, İsrayıl İsgəndərov, Sənan Əliyev, Əliməmməd Nuriyev, |
| ***Fəaliyyətin qısa təsviri*** | 4.1. Korporativ Sosial Məsuliyyət üzrə dünyada mövcud olan tənzimləmə metodları və yanaşmalar araşdırılmış, tənzimləmə formaları, o cümlədən özünü tənzimləmə barədə məlumatlar toplanılmış, tənzimləmə üçün beynəlxalq və regional standartlar öyrənilmiş, korporativ sosial məsuliyyətin tənzimlənməsində müxtəlif ölkələrin təcrübəsi öyrənilmiş, Azərbaycanda korporativ sosial məsuliyyətin tənzimlənməsi məsələləri üçün qanunvericilikdə buna aid edilə biləcək müddalar və normativ aktlar araşdırılmışdır. Araşdırmaların nəticəsi olaraq 3-cü fəsil tamamlanmış, müzakirə edilmiş və tədris üçün məqsədəuyğun sayılmışdır.<br>4.2. 4-cü fəsilin hazırlanması məqsədilə dünyada və Azərbaycanda həyata keçirilən korporativ sosial məsuliyyət layihələri araşdırılmış, korporativ sosial məsuliyyət layihələrinin əsas xüsusiyyətləri müəyyənləşdirilmiş, korporativ sosial məsuliyyət üzrə maraqlı tərəflərin, QHT və medianın rolu barədə bölmələr işlənmiş, neft-qaz sənayesində, bank və fondlarda, inşaat sənayesində, turizm müəssisələrində, ərzaq və gündəlik tələbat malları müəssisələrində, səhiyyə müəssisələrində, kompüter, mobil telefon istehsalçıları müəssisələrində və əhaliyə xidmət müəssisələrində KSM yanaşması, korporativ sosial məsuliyyət layihələri və onların özəlliklərindən nümanələr verilmişdir. Xüsusi bir paraqraf Azərbaycan KSM nümunələri adlanır ki, bu bölmədə Azərbaycanın iş adamları və şirkətlərinin KSM nümunələri verilmişdir. |

**5-ci fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | KSM üzrə dərs vəsaitinin ATİ-nin Elmi Şurasında müzakirəsi, qrifin alınması və çapa hazırlıq |
| ***Keçirilmə tarixi*** | Oktyabr-noyabr 2014 |
| ***Keçirildiyi yer*** | ATİ |
| ***İştirakçılar*** | ATİ-nin Menecment kafedrasının müəllimləri 12 nəfər, ATİ-nin Elmi-metodik şurasının üzvüləri 21 nəfər, cəmi 33 nəfər |
| ***Fəaliyyətin qısa təsviri*** | Dərs vəsaiti rəy vermək üçün müvafiq mütəxəssislərə təqdim olunmuş, rəylər alınmış, ATİ-nin Menecment kafedrasının oktyabr iclasında müzakirəyə çıxarılmış və dərs vəsaitinin fakültə Elmi Şurasında müzakirəyə çıxarılması tövsiyə edilmişdir. ATİ Biznes İdarəçiliyi fakültəsinin Elmi Şurasının 31 oktyabr 2014-cü il tarixli iclasında sözü gedən dərs vəsaiti müzakirə edilmiş və ATİ-nin Elmi-Metodik Şurasına təqdim edilmişdir. Həmçinin, ATİ Elmi-Metodik Şurasının 04 noyabr tarixli iclasında dərs vəsaiti müzakirə edilmiş və qrif alınması üçün Təhsil Nazirliyinə göndərilməsi qərara alınmışdır. |

**6-cı fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | KSM üzrə dərs vəsaitinin Qrif alınması üçün Təhsil Nazirliyinə təqdim olunması ATİ |
| ***Keçirilmə tarixi*** | Oktyabr-noyabr 2014 |
| ***Keçirildiyi yer*** | Azərbaycan Turizm İnstitutu |
| ***İştirakçılar*** | İsrayıl İsgəndərov, Sənan Əliyev |
| ***Fəaliyyətin qısa təsviri*** | ATİ-nin Menecment kafedrasının, Biznes İdarəçiliyi fakültəsinin Elmi Şurasının və ATİ Elmi-Metodik Şurasının iclaslarının protokolundan çıxarış alınmış, müəlliflərin imzaları notariat qaydada təsdiq edilmiş, rəylər əlavə edilməklə sənəd toplusu Təhsil Nazirliyinə qrif alınması üçün təqdim olunmuşdur. |

**7-ci fəaliyyət**

| | |
|---|---|
| ***Fəaliyyətin adı*** | Dərs vəsaitinin çapı üçün tədbirlər |
| ***Keçirilmə tarixi*** | Noyabr 2014 |
| ***Keçirildiyi yer*** | Azərbaycan Turizm İnstitutu |
| ***İştirakçılar*** | İsrayıl İsgəndərov, Sənan Əliyev |
| ***Fəaliyyətin qısa təsviri*** | Qaydalara əsasən dərs vəsiti ali təhsil müəssisəsinin Elmi-Metodik Şurasında çap üçün tövsiyə edildikdən sonra sınaqdan keçirmək məqsədilə qrif alınmadan çap oluna bilər. Dərs vəsaiti nümunə olaraq çap edilmiş və fənni tədris edən müəllimlərə təqdim edilmişdir. Dərs vəsaiti Təhsil Nazirliyinin müvafiq icazəsindən sonra çap edilərək geniş oxucu kütləsinə təqdim ediləcəkdir. |

4. **Əgər planlaşdırılmış fəaliyyətlərdən hər hansı biri yerinə yetirilməyibsə bunun səbəblərini əsaslandırın.**
Dərs vəsaitinin çapı 2014-cü ilin Noyabr ayında nəzərdə tutulmuşdur. ATİ-nin Elmi-Metodik Şurasının 2014-2015-ci tədris ili üzrə ilk iclasının noyabrın əvvəlində keçirilməsi, dərs vəsaitinin Elmi-Metodik Şurada müzakirəsinin gecikməsi və Təhsil Nazirliyində qrif alınması məsələlərində müəyyən dəyişikliklər olunması səbəbində çap işləri gecikmiş, vəsaitin ancaq "siqnal" versiyası çap edilmişdir. Lakin dekabr ayında dərs vəsaitinin çap olunması nəzərdə tutulur.

5. **Layihənin hesabat dövrü üçün nəticələrini və əldə etdiyiniz nailiyyətləri qeyd edin.**

İlk dəfə olaraq, Azərbaycanda Korporativ Sosial Məsulliyyət üzrə dərs vəsiti hazırlanmış və maraqlı tərəflə müzakirə edilmişdir.

6. **Əldə etdiyiniz nəticələrin və nailiyyətlərin qiymətləndirmə meyarlarını göstərin.**

- KSM-in bir fənn kimi daxil edildiyi tədris proqramlarının sayı;
- KSM üzrə müzakirələrin sayı;
- Keçirilmiş dərslərin sayı və dərsləri keçirən ali təhsil müəssisələrinin sayı;
- KSM üzrə keçirilmiş konfranslarda çıxışların və təşkil olunmuş dəyirmi masaların sayı;
- KSM üzrə dərs vəsaitinə salınmış mövzuların sayı və siyahısı.

7. **Bu layihənin davamlı təsirlərinin əsas elementlərini açıqlayın.**

- Tədris proqramlarına salınmış fənlər müvafiq ali təhsil müəssisəsinin uzun müddət tədris planında qalır və bu baxımdan KSM-in bir fənn kimi tədrisi uzun müddətli olacaq;
- Hazırlanmış fənn tədris proqramları daima təkmilləşəcək və bunun əsasında dərslik və dərs vəsaitləri hazırlanacaq ki, bu, tədris prosesində KSM-in davamlı və keyfiyyətli tədrisinə köməklik göstərəcəkdir.

8. **Layihədən faydalananlar**

| | **Faydalananlar** | **Yaş həddi** | | | | **Cəmi** | **Gender balansı** |
|---|---|---|---|---|---|---|---|
| | | **18 yaşa qədər** | **18-30 yaşa qədər** | **30-50 yaşa qədər** | **50 yaşdan yuxarı** | | |
| 1 | Birbaşa faydalananlar | | 70 | 30 | 10 | 110 | Kişi:<br>Qadın: |
| 2 | Dolayı faydalananlar | | | | | | Kişi:<br>Qadın: |
| | **Yekun** | | **70** | **30** | **10** | **110** | Kişi:<br>Qadın: |

9. **Layihədə çalışan işçilər**

**9.1. Layihədə daimi çalışan işçilər**

| **№** | **Soyadı, adı və atasının adı** | **Layihədə vəzifəsi** | **İşlədiyi müddət** | **Hesabat dövründə aldığı əmək** |
|---|---|---|---|---|

| | | | | haqqının məbləği |
|---|---|---|---|---|
| **1.** | İsgəndərov İsrayıl İsa | Layihə rəhbəri | aprel-noyabr, 2014 | 210,00 |
| **2.** | Cəfərquliyeva Günel Rasim | Ekspert | aprel-noyabr, 2014 | 120,00 |
| **3.** | Əliyev Ramiz İlyas | Mühasib | aprel-noyabr, 2014 | 100,00 |
| **4.** | Əsgərov Elşən Sadıq | Təchizatçı | aprel-noyabr, 2014 | 50,00 |
| **5.** | Əskərli Aynur Əjdər | İnformasiya | aprel-noyabr, 2014 | 50,00 |

**9.2. Layihənin icrasına müvəqqəti cəlb olunmuş işçilər**

| | **Soyadı, adı və atasının adı** | **Layihədə vəzifəsi** | **İşlədiyi müddət** | **Hesabat dövründə aldığı əmək haqqının məbləği** |
|---|---|---|---|---|
| **1.** | Elşən Ağayev | Könüllü | May-iyun | Yoxdur |
| 2. | Nigar Haqverdiyeva | Könüllü | May-iyun | Yoxdur |
| | | | | |

## 10. Layihə çərçivəsində alınmış avadanlıqlar

Layihə çərçivəsində heç bir avadanlıq alınmamışdır.

| | **Avadanlığın adı** | **Sayı** | **Dəyəri** |
|---|---|---|---|
| | - | - | - |
| | | | |
| | | | |
| | **Cəmi** | | |

## 11. Layihə çərçivəsində hazırlanmış nəşrlər

Vəsaitin “siqnal” nümunəsi

| | **Nəşrin adı** | **Nəşr haqqında qısa məlumat** | **Tirajı** | **Paylanma statistikası** |
|---|---|---|---|---|
| 1 | Korporativ Sosial Məsuliyyət üzrə dərs vəsaiti | Nəşr 4 fəsildən, 235 səhifədən ibarətdir. İki nəfər rəy verib, 3 tədbirdə , 1 kafedra iclasında, 1 Elmi-Metodik Şurada müzakirə edilib. | 1 | 1 |
| | | | | |
| | | | | |
| | **Cəmi** | | **1** | **1** |

## 12. Hesabat dövrü ərzində maliyyələşmə vəziyyəti haqqında

| **№** | **Maliyyənin daxil olma tarixi** | **Məbləği** | **Xərclənib** | **Qalıq** |
|---|---|---|---|---|
| **1.** | 11 aprel, 2014-cü il | 4900,00 | 7000,00 | - 2100,00 |
| | | | | |
| | **Cəmi** | **4900,00** | **7000,00** | **- 2100,00** |

## 13. Layihənin monitorinqi haqqında

Layihənin monitorinqi hələ aparılmayıb.

| | Monitorinq tarixi | Monitorinq edən təşkilatın adı və monitorinq aparan şəxsin adı və soyadı | Monitorinq dövründə aşkarlanan nöqsanlar, verilən tövsiyə və tapşırıqlar | Tövsiyələrin həlli üçün gördüyünüz işlər |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

## 14. Mətbuatla əlaqə sahəsində görülən işlər

Mətbuatla iş aparılmayıb.

| | Layihə haqqında məlumat verdiyiniz mətbuat orqanı | Məlumatın verilmə tarixi | Məlumatı dərc edən mətbuat orqanının adı |
|---|---|---|---|
| | | | |
| | | | |

## 15. Layihənin icrası müddətində qarşılaşdığınız problemləri və onları necə həll etdiyinizi izah edin.

Layihənin icrası dövründə heç bir problem və ya çətinlik olmamışdır.

## 16. Layihənin sizin təşkilata və layihədə iştirak edənlərə təsirini təsvir edin.

Layihənin icrası müddətində, “Ümid” SİD İB iki ekspertlə işləmiş və onların KSM sahəsində xidmətlərindən yararlanaraq, bu sahədə bacarıqları artırılmışdır. “Ümid” SİD İB-in ali təhsil müəssisələri ilə əlaqələri formalaşmış, tədris və fənn proqramlarının hazırlanmasında təcrübə qazanmışdır.

## 17. Layihə çərçivəsində müraciət etdiyiniz problemlə əlaqədar vəziyyətin daha da yaxşılaşdırılması və ya tam həlli üçün təklifləriniz

**Layihə rəhbərinin adı və soyadı:** **İsrayıl İsgəndərov**

**İmzası:** ______________

**Hesabatın təqdim edilmə tarixi:** **“01” dekabr, 2014-cü il**

**Təşkilatın möhürü:**

| *Katibliyin qeydi üçün* | |
|---|---|
| **Hesabatı qəbul edən şəxsin adı və soyadı** | |
| **İmzası** | |
| **Qəbul tarixi** | “____” ________________ 2014-cü il |
| **Rəyi** | |